**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**NİZAMİ GƏNCƏVİ ADINA**
**MİLLİ AZƏRBAYCAN ƏDƏBİYYATI MUZEYİ**

# R İ S A L Ə

## *Araşdırmalar toplusu*

## № 11

**Bakı – "Elm və Təhsil" – 2015**

***Azərbaycan Milli Elmlər Akademiyası***
***Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi***
***Elmi Şurasının 16 sentyabr 2015-ci il (protokol №7)***
***qərarı ilə nəşr edilir***

***Redaktor:*** AMEA-nın həqiqi üzvü,
filologiya elmləri doktoru,
professor
**Rafael HÜSEYNOV**

**Redaksiya heyəti:**
**Kamil Allahyarov, filologiya elmləri doktoru, professor**
**Xatirə Bəşirli, filologiya elmləri doktoru**
**Şəfəq Əlibəyli, filologiya elmləri doktoru**
**Aida Qasımova, filologiya elmləri doktoru, professor**
**Nəzmiyyə Yigitoğlu, filologiya üzrə fəlsəfə doktoru**

**Risalə. Araşdırmalar toplusu. 11-ci cild**
**Bakı, "Elm və Təhsil" nəşriyyatı, 2015. – 232 səh.**

Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi əməkdaşlarının elmi araşdırmalarından ibarət "Risalə" toplusu ildə bir dəfə nəşr edilir və məzmunu etibarilə klassik, müasir ədəbiyyat, fəlsəfə, mədəniyyət problemləri, həmçinin muzeyşünaslıq məsələlərini əhatə edir. Toplunun 11-ci cildi böyük Azərbaycan şairi Bəxtiyar Vahabzadənin 90 illiyi ilə əlaqədar muzeyin keçirdiyi respublika konfransının materialları əsasında tərtib edilmişdir. Konfransda əsas mövzu bilavasitə Bəxtiyar Vahabzadənin yaradıcılığı olsa da, müxtəlif bölmələrdə Azərbaycan ədəbiyyatının klassik və müasir dövrünə aid müxtəlif problemləri əhatə edən məruzələr də dinlənilmişdir. Redaksiya heyətinin təqdimatı və Elmi Şuranın qərarına əsasən Bəxtiyar Vahabzadəyə aid məqalələrin ən uğurluları seçilərək ayrıca bölmədə yerləşdirilmişdir. Toplunun ikinci hissəsində isə istər digər mövzular, istərsə də B.Vahabzadə yaradıcılığına aid tezislərin ən diqqətəlayiqləri dərc edilir.

Məqalələrin bir hissəsi ənənəvi olaraq muzey əməkdaşlarına məxsus olsa da, bu cildimizdə kənar elmi müəssisələrdən olan müəlliflərin də məqalələri yer almışdır.

Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi əməkdaşlarının, bir növ, məsul yaradıcılıq laboratoriyası olan "Risalə" mütəxəssislər, ali məktəb tələbələri, eləcə də Azərbaycan ədəbiyyatı və mədəniyyətinin problemləri ilə maraqlanan geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur. "Risalə" araşdırmalar toplusu Nizami muzeyinin ərsəyə gətirdiyi özünəməxsus tədqiqat topluları "Xəmsə"sinə daxil olan "Şərq" (Tərcümə toplusu), "Məclis" (Mərasimlər toplusu), "Xəzinə" (Kataloqlar toplusu), "Qaynaq" (Mənbələr toplusu) məcmuələr silsiləsindəndir və Ali Attestasiya Komissiyasının təsdiq etdiyi nəşrlər sırasında yer almaqdadır.

**© AMEA Nizami Gəncəvi adına**
**Milli Azərbaycan Ədəbiyyatı Muzeyi**
**© 2015**

**Yeganə Sabir qızı HÜSEYNOVA**
**Gəncə Dövlət Universiteti**
**yegane.huseynli@box.az**

**Açar sözlər:** Şair, poema, kənd həyatı
**Key words:** poet, poem, rural life
**Ключевые слова:** поэт, поэма, деревенская жизнь

## BƏXTİYAR VAHABZADƏ POEMALARINDA SOSİAL MÜHİTİN TƏSVİRİ

Bəxtiyar Vahabadə poemalarını fərqləndirən əsas cəhətlərdən biri şairin sosial həyat və mühiti dolğun təsvir etməsidir. Onun yaradıcılığının ilk mərhələsinin məhsulu olan "Sadə adamlar" və "İztirabın sonu" poemalarında da kənd həyatı və sosial mühitin epik təsviri poetik şəkildə verilmişdir. Bu poemalarda sosial mühit, eləcə də kənd və şəhər arasında mövcud olan fərqliliklərin insan psixologiyasındakı təzahürü təsvir edilir.

Əvvəlki poemalarında olduğu kimi, "Sadə adamlar"da da aparıcı mövqe tutan sevgi xəttində sosial mühitin təsvirinə geniş yer verilir. Ülkər–Rizvan, Cəmilə–Nəriman xətlərində səmimi, ülvi insani münasibətin qəlblərə gətirdiyi hiss və duyğudan bəhs edilir. Ülkər kəndə gələrkən çətinliklərlə üzbəüz qalır, ilk günlər tərəddüdlər də keçirir. Və təbii ki, bu psixoloji hallar və həyəcanlar şəhərdə böyüyən və ali təhsil alan gənc mütəxəssisin daxili aləmini, duyğu və düşüncələrini dolğun əks etdirir və bu hal tamamilə obyektiv təsir bağışlayır, oxucu qəhrəmanın mənəvi təkamülünü hadisələrin ümumi axarında izləməyə nail olur.

Əlbəttə, "Mən kənddən gedirəm, kənd gözəlləşir" fikri əsasən Rizvanın kənddən ayrılma məqamlarına bir işarə olmaqla yanaşı, həm də kəndi gözəlləşdirməyə, inkişaf və tərəqqiyə doğru aparmağa can atan Ülkərin gəlişini bir yenilik və ruh yüksəkliyi kimi qarşılamaq cəhdini də təlqin edir. Poemada təbiətlə insan üzbəüz və nəfəs-nəfəsə təsvirə gətirilir, burada insanın keçirdiyi daxili təbəddülatlar, təbiətlə qarşılıqlı münasibətlər təsirli və inandırıcı lövhələrlə verilir. Şair burada kəndlə şəhəri bir-birinə qarşı qoymur, "işi bir, sözü bir" olanlar üçün kəndin özünün də şəhər olduğunu dilə gətirir.

Hələ kifayət qədər yaradıcılıq təcrübəsinə və səriştəsinə malik olmasa da, Bəxtiyar Vahabzadənin 50-ci illərin ortalarında yazdığı bu poemalarında sosial mühit mövzusu ətrafında qurduğu süjet xətləri öz dövrü üçün yenilikçilik kimi qəbul edilə bilər. Şairin bir qədər təfərrüatları uzun təsir bağışlayan fikir və düşüncələri ev və ailə mühitinə, onun davranış və münasibətlərinə gur işıq salır ki, bu da bir çox qaranlıq mətləblərin bədii ifadəsinə geniş imkanlar açır.

Həyata və dünyaya münasibətdə fərqli düşüncə sahibləri olan Hatəmlə Şahnaz arasında yaranan uçurumlar və ixtilaflar "İztirabın sonu" poemasında bütün detalları ilə üzə çıxır. Şahnazın Hatəmin keçirdiyi hisslərə biganə və laqeyd münasibətində aralarında yaranan mənəvi uçurumların fəsadları sosial mühitin mənzərəsini aydın şəkildə göstərir.

Daha sonra ailədə yaranan soyuq münasibət, Gülpəri–Hatəm qarşılaşması və nəhayətdə Hatəmin evli olması məsələsinin ortaya çıxması, Sədaqət adlı körpəsinin dünyaya gəlişi və ailədə tədricən tarazlığın bərpasına stimul yaratması poemada əsas ideyanın qabarıq şəkildə ifadəsini gerçəkləşdirir.

Beləliklə, B.Vahabzadənin ilk yaradıcılıq məhsullarından olan "Sadə adamlar" və "İztirabın sonu" poemalarının əsas təsvir obyektinin sosial mühit və onun xarakterinin olduğunu görmək mümkündür.

"Sadə adamlar"da (1952-1955) Bəxtiyar Vahabzadə bundan əvvəl yazdığı poemalarda qaldırılan problem məsələlərə sədaqət nümayiş etdirməyə fəal təşəbbüs göstərir. Bu əsərdə də sosial qayğılar: kənd və şəhər arasında mövcud olan tamamilə fərqli durum və bunun insan psixologiyasında müəyyən izlər buraxması əsas məqsəd və hədəf seçilir.

Digər poemalarında olduğu kimi, bu əsərdə də sevgi xətti aparıcı bir mövqe tutur. Ülkər–Rizvan, Cəmilə–Nəriman arasında olan səmimi hisslər və düşüncələr bu baxımdan diqqətdən yayınmır. Müəllifin ayrı-ayrı bölmələr və nəğmələr şəklində qələmə aldığı poemanın elə bir səhifəsi yoxdur ki, orada bu ülvi insani münasibətin qəlblərə gətirdiyi hiss və duyğudan kifayət qədər bəhs edilməsin. Əlbəttə, poemadakı sevgi xəttinin əsər boyu aparıcı bir ideya istiqaməti kimi müəyyənləşməsi elə bir ciddi narazılıq doğurmur. Ancaq poemaya bütövlükdə natamam təəssürat aşılayan məqamlar sevgi xəttinin heç birinin kifayət qədər əsaslandırılmaması və sona qədər davamlı şəkildə izlənilməməsidir. Şair Ülkəri hazır qəhrəman kimi oxucuya təqdim etmir. O, kəndə gələrkən çətinliklərlə üzbəüz qalır, ilk günlər tərəddüdlər də keçirir. Və təbii ki, bu psixoloji hallar və həyəcanlar şəhərdə böyüyən və ali təhsil alan gənc mütəxəssisin daxili aləmini, duyğu və düşüncələrini dolğun əks etdirir və bu hal tamamilə obyektiv təsir bağışlayır, oxucu qəhrəmanın mənəvi təkamülünü hadisələrin ümumi axarında izləməyə nail olur.

Kənd mühiti, onun təbiəti, saf qəlbli insanları Ülkərin bu yerlərə tez bir zamanda isinişməsinə, ürəkdən bağlanmasına münbit zəmin yaradır, hətta quşların və yağan yağışın səsi burada nağıllarda təsvir olunan əsrarəngiz və sehrli bir aləmi ona xatırladır.

Şair "məni"nin məhsulu olan bu düşüncələr həm də poemanın baş qəhrəmanı olan Ülkərin həyat və fəaliyyət kredosunu və məramını dolğun əks etdirməkdədir. Bu düşüncələr Ülkəri daha fəal və işgüzar fəaliyyətə qoşur, Şiraslan kişinin vasitəsilə kənd rəhbərləri ilə baş tutan görüşdə də o öz məram və məqsədini açıq etiraf edir, kəndin dirçəlişi və tərəqqisi naminə hamını səfərbərliyə çağırır. Əlbəttə, Ülkərin bu fəaliyyətinə qısqanclıqla yanaşanlar da tapılır ki, bu da poemada əsas konflikti şərtləndirən başlıca amillərdən biri kimi müəyyənləşir. Kənd kitabxanasında uzun müddət başını girləyən Vəli kişinin yerində elmi-texniki nailiyyətləri kəndə və onun təsərrüfat həyatına gətirməyi qarşısına əsas niyyətlərdən biri kimi qoyan Ülkərin fəaliyyəti yalnız kənd kitabxanasında kosmetik xarakterli səliqə-sahman yaratmaqla məhdudlaşıb qalmır, o, tezliklə pambıq sahələrinə baş çəkir, min bir əziyyətlə becərilən "ağ qızıl"ın becərilməsində zəhmət çəkən əmək adamlarının qayğı və problemlərinin həlli yollarının axtarılıb tapılmasında yaxından iştirak edir. Tez bir vaxtda o, pambıq ustaları Yasəmənlə Zöhrənin yaxın sirdaşına və xeyirxah məsləhətçisinə çevrilir.

Poemadakı bu səhnələr və təsvirlər işini-gücünü ataraq Cəmiləni sevmək xəyalları ilə "ciddi" məşğul olan mehtər Nərimana da təsirsiz ötüşmür, əvvəlcə mehtər sənətini özünə ar bilən Nəriman baş tutmayacaq bu sevgidən uzaqlaşır, Mehtər Təyyarın yazmış olduğu kitabdan faydalanaraq öz işində əsaslı dönüş yaratmağa müvəffəq olur. Ayrı-ayrı təsərrüfatlarda, hətta yaylaqlarda belə səyyar kitabxananın təşkilinin əmək adamlarının həyatında, fəaliyyət sahələrində nailiyyətlərə gətirib çıxarması fonunda insani münasibətlərin bir qədər arxa plana keçməsinə səbəb olması da nəzərdən yayınmır. Məsələn, Ülkərlə ilk görüşdən Rizvan arasında az qala əhd-peymana çevrilən görüş səhnələri, onların ailələrində öz doğma evlərində olduğu kimi qarşılanması epizodları Rizvanın anası Pəri tərəfindən bəyənilən, hörmət və izzətlə qarşılanan kitabxanaçı qızın sevgi taleyinin yarımçıq qalması, poemada bu xəttin kifayət qədər ayrı-ayrı hadisə və təfərrüatlarla "yüklənməsi" hesabına sona çatdırılmamasına səbəb olur, hadisə içindən şaxələnən hadisələr poemaya ağırlıq və ümumiləşdirmələrə zərurəti kölgədə saxlayır.

Bəxtiyar Vahabzadənin 1956-cı ildə qələmə aldığı "İztirabın sonu" poeması da epik səpkidə yazılan belə nümunələrdəndir. Bu poemada da ailə-məişət mövzusu əsərin əsas ideya istiqamətini müəyyənləşdirir. Müəllif gənc bəstəkar Hatəmin şəxsində təsadüfi tanışlıq nəticəsində Şahnazla qurulan ailənin davranış və münasibətlərində, həyat və dünyagörüşlərində baş verən ziddiyyətlərin fonunda yaranan fikir ayrılıqlarını, tamamilə fərqli düşüncə tərzlərini konkret hadisə və təfərrüatlar əsasında açmağa müvəffəq olur.

İnsanın mənəvi dünyasının ən səciyyəvi məqamlarına toxunan, onun təzadlarını, bir çox hallarda qəribəliklərini özünəməxsus poetik ümumiləşdirmələrlə canlandırmağa çalışan şairin, dünyanın əşrəfi sayılan insanın bir anın içində büsbütün dəyişməsini, özgələşməsini həssaslıqla duymaq, bu məqamları əks etdirən təfərrüatları epik təsvirin predmetinə çevirmək cəhdi poemanın əvvəlində daha qabarıq ifadəsini tapır.

Poemanın ayrı-ayrı hissələrində əsas konflikt və ziddiyyətləri doğuracaq səbəblərin bəzən o qədər də həyati məsələlərdən və real mətləblərdən yaranmaması diqqətdən yayınmır. Şübhəsiz ki, bir sənət əsərinə baxışdan və təəssüratlardan irəli gələn fərqli münasibətin fonunda yaranan fikir ayrılığının az qala yeni qurulan ailənin dağılmasına gətirib çıxaracağı da oxucu üçün bir o qədər inandırıcı təsir bağışlamır. Şairin insanların dünyagörüşündə və həyata baxışındakı fərqli yanaşmaları doğuran ciddi səbəbləri yalnız adi bir təfərrüat üzərində qurmaqdansa, gerçəkliklərin özündən irəli gələn məsələlərə yönəltməsi daha təbii görünər, nəticə etibarilə əsər belə bir məziyyəti ilə daha çox yeni və prinsipial keyfiyyətlər qazana bilərdi. Belə xüsusiyyətlərə Bəxtiyar Vahabzadənin epik yaradıcılığının ilkin mərhələlərində təsadüf edilməsi həm də hələ bu sahədə müəyyən təcrübə və səriştənin olmamasından irəli gələn bir hal kimi qiymətləndirilməlidir. Hadisə və süjet içində yeni təfərrüatlar vermək, situasiyaların bəzən qəsdən uzadılmasına edilən uğursuz cəhdlər də şairin ilk poemalarından nəzərə çarpan qüsurlardan idi və bunun əlamətləri "İztirabın sonu" poemasında da müşahidə olunmaqdadır. Digər tərəfdən, keçən əsrin ortalarında ailə-məişət mövzularında qələmə alınan poemaların

böyük əksəriyyətində real həyatın və gerçəkliklərin məntiqindən irəli gələn barışmaz ziddiyyətlərin bütün təfərrüatı ilə açılmaması və ya belə konflikti doğuran səbəblərin obyektiv və inandırıcı görünməməsi dəfələrlə işlənmiş mövzulara və konkret hadisələrə təkrar müraciətdən irəli gəlirdi. Aydın həqiqətdir ki, ailədə və cəmiyyətdaxili münasibətlərdə belə hadisələr və gözlənilməz situasiyalar baş verə bilər və bu, epik əsər üçün yeni mövzu və ideyaların bədii ifadəsinə yönəldilməsi şübhə doğurmur. Bu, həyati müşahidələrin obyektiv səciyyəsindən və dərin ümumiləşdirmə qabiliyyətindən irəli gələn bir xüsusiyyət kimi epik səpkili əsərlərdə əsas ideyanın ifadəsində başlıca rol oynaya bilər.

Bu tipli suallar, şübhəsiz ki, Bəxtiyar Vahabzadənin bir müəllif kimi özünə və qəhrəmanlarına münasibətinə də ünvanlana bilərdi. Çünki keçən əsrin ortalarında ailə-məişət mövzularında qələmə alınan əsərlərə belə baxış bucağından yanaşma ön mövqeyə çıxır, mövzu və sənətkarlıq məsələləri kimi yenidən aktuallıq qazanır. Hətta belə məqamlarda bədii həqiqətlə həyati gerçəkliyi eyniləşdirmək cəhdləri də nəzərə çarpırdı. Qəhrəmanın və ayrı-ayrı surətlərin səciyyəvi cəhətlərinin müəyyənliyindəki sinxronluğu da, yanlış addımları da sənətkarın adına yazmaq təşəbbüslərinə təsadüf edilməsi adi hala çevrilirdi.

Beləliklə, Bəxtiyar Vahabzadənin epik yaradıcılığının birinci mərhələsində qələmə aldığı ədəbi nümunələrin mövzu, ideya-sənətkarlıq xüsusiyyətləri bir daha onu təsdiqləyir ki, şairin bütün istiqamət və sahələr üzrə axtarışları bilavasitə bu dövrdən başlayaraq özünün inkişaf və təkamül prosesini keçirir. Əslində, kəskin fikir və mövqe toqquşmaları, dramatik təzadlar və gərgin situasiyalar Bəxtiyar Vahabzadənin poemalarında özünün parlaq bədii ifadəsini tapır. Bu cəhət sonralar şairin bir dramaturq kimi məhsuldar yaradıcılıq axtarışları aparmasına da müsbət təsir göstərir.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT:

1. Vahabzadə B. Sadə adamlar. Bakı: Azərnəşr, 1956.
2. Vəliyev M. Bir ailənin tarixi. “Ədəbiyyat və incəsənət” qəzeti, 31 mart 1957.
3. Vahabzadə B. İztirabın sonu. (Poema), “Ceyran”, Bakı: Azərbaycan Uşaq və Gənclər Ədəbiyyatı Nəşriyyatı, 1957.
4. Mahmudov R. Kənd həyatından yazılan əsərlərə aid bəzi qeydlər. “Ədəbiyyat və incəsənət” qəzeti, 30 oktyabr 1954.
5. Hüseynov Ə. Sadə adamlar. “Ədəbiyyat və incəsənət” qəzeti, 18 sentyabr 1954.

## KİTABIN İÇİNDƏKİLƏR

Rafael HÜSEYNOV. Bəxtiyar Vahabzadənin arzuladığı bəxtiyar gələcək........4

## BÖLMƏLƏR:

**BÖLMƏ 1: BƏXTİYAR VAHABZADƏ VƏ AZƏRBAYCAN ƏDƏBİYYATINDA VƏTƏNPƏRVƏRLİK MÖVZUSU**
**BÖLMƏ 2: BƏXTİYAR VAHABZADƏ VƏ AZƏRBAYCAN DRAMATURGİYASINDA TARİXİLİK**

## MƏQALƏLƏR

Kamil ŞƏRİFOV. Süleyman əl-İsanın yaradıcılığının Azərbaycan poeziyası ilə uzlaşan məqamları ........................................................31
Aynurə PAŞAYEVA. Bəxtiyar Vahabzadə publisistikasında milli özünüdərk.......................................................................................38
Bayram GÜNDOĞDU. Türk dünyasının şairi Bəxtiyar Vahabzadə............... 43
Dilarə ƏLİYEVA. Bəxtiyar Vahabzadə və Azərbaycan dramaturgiyasında tarixilik....................................................................49
Sakibə ƏLƏSGƏROVA. Azadlıq və istiqlal şairləri: Bəxtiyar Vahabzadə və Sönməz .......................................................................53
Gülşən MEHDİZADƏ. İbtidai siniflərdə milli vətənpərvərlik hissinin aşılanması ...........................................................................................59
Yeganə HÜSEYNOVA. Bəxtiyar Vahabzadə poemalarında sosial mühitin təsviri ......................................................................... 64
Reyhan MƏCİDOVA. Poeziyamızın günəşi öz misralarında..........................70
Aida MİRZƏYEVA. Bəxtiyar Vahabzadənin poetik yaradıcılığında vətən sevgisinin tərənnümü ...................................................................76
Natavan MUSTAFAYEVA. Bəxtiyar Vahabzadə yaradıcılığında türkçülük.. 81
Nəzmiyyə YİGİTOĞLU. Azərbaycan poeziyasındakı "altmışıncılar" nəslində dissident düşüncə – Bəxtiyar Vahabzadədən Vaqif Səmədoğluyadək .............86
Türkan QƏDİROVA. Bəxtiyar Vahabzadə poeziyasında ana dilinə münasibət ..........................................................................................92
Roza EYVAZOVA. Bəxtiyar Vahabzadə yaradıcılığına bir baxış ..................97
Tomiris BABANLI. Bəxtiyar Vahabzadə poeziyası ingilis tərcümələrində ..102
Тойраханум ГУСЕЙНОВА. Национальное и общечеловеческое в поэзии Бахтияра Вагабзаде ......................................................109
Nuranə ƏSƏDULLAYEVA. Bəxtiyar Vahabzadə poeziyasında ədəbiyyat və sənət məsələləri .........................................................113